**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№312/2** **24 iyul 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2019-cu ilin I yarımili ərzində Auditorlar Palatasına üzvlük haqqının ödənilməsi vəziyyəti barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2019-cu ilin I yarımili ərzində üzvlük haqqının ödənişi vəziyyəti barədə Maliyyə və təşkilati-texniki təminat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2019-cu ilin I yarımili ərzində Palataya üzvlük haqqının ödənilməsi vəziyyəti barədə Maliyyə və təşkilati-texniki təminat idarəsi tərəfindən təqdim edilmiş məruzə nəzərə alınsın (Əlavə olunur).

2. Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2019-cu ilin I yarımili ərzində Palataya üzvlük haqqının yığımı vəziyyəti qeyri-qənaətbəxş hesab edilsin.

3. Azərbaycan Respublikası Auditorlar Palatasına olan üzvlük haqqı borclarını tam məbləğdə ödəməyən aşağıdakı auditor təşkilatlarına:

1. “Premium Audit” MMC (direktor - Kərimov Nicat);
2. “G&A Audit” MMC (direktor - Qafarov Səid);
3.“Premier Audit Və Konsalting” MMC (direktor - Ağayev Rahim);
4.“Smart Audit” MMC (direktor - Məmmədov Emil);
5.“Çinar” Audit Konsalting MMC (direktor - Rəhimli Kamran);
6."Intex Audit" MMC (direktor - Əliyev Ruhin);
7."PKF Audit Azərbaycan"MMC (direktor - Hüseynzadə Ziya);
8."Legal Audit” MMC (direktor - Quluzadə Elçin);
9."Trust Audit” MMC (direktor - Şahmarov Ramin);
10."BNB Audit" MMC (direktor - Qurbanov Nəbi);
11."Fairness Consalting Group" MMC (direktor - Bağırov Eldəniz);
12."Real Audit Konsalting"MMC (direktor - Hacıyev Mübariz);
13."Argentum Audit" MMC (direktor - Ağayev Rüstəm);
14."İnternational Audit" MMC (direktor - Yolçuyev Şahin);
15.“Grow Audit and Consalting” MMC (direktor - Abdurahmanov Orxan);
16."Econom Audit" MMC (direktor - Osmanova Fəridə);
17." Grandis Audit " MMC (direktor - Quliyev Fərid);
18."Femida A.R" MMC (direktor - Məmmədova Xalidə);
19. "Bakı Audit Konsalting" MMC (direktor - Orucov Məmmədəli);
20."Global Audit" (direktor - Pirimov Azər);
21."ONZ Accounting"MMC (direktor - Orucov Nurlan);
22."SWİFT Consulting Audit" MMC (direktor - Nəzirov Fuad);

24.Compass Audit Konsalting (direktor İsgəndərov Səməd);
25.“Elvi Audit” MMC (direktor Əliyev Vüqar);
26.“Azer Audit” MMC (direktor Qənbərov Xalid);
27."Audit Servis"MMC (direktor Abdullayev Oleq);
28.“İnterAudit Services” MMC (direktor Abbasov Anar);
29.“MS Audit” MMC (direktor Hacıyev Azər);
30."AZAUDİT" MMC (direktor İsrəfilov Afiq );
31."Grant Thornton" auditor MMC (direktor Farouk Mohamed)

və aşağıdakı sərbəst auditorlara:
1.Hüseynov Şəmşinur;
2. İbrahimov Elnur;
3. Nuriyev Alqış;
4. İsmayılov Səxavət;
5. Mikayılzadə Raqif;
6.Məmmədov Daşqın;
7. Əvəzov Kamil;
8.Tağıyev Vasif;
9.Yusifova Gülnarə;
10. Çələbiyev Eldəniz;
11. Cəfərova Şəhnaz;
12. Zəkiyev Zəki;
13. Hacaliyev Elşad;
14. Vəliyev Hafiz;
15. İsazadə Ələkbər
auditor fəaliiyəti göstərmək üçün verilmiş icazənin fəaliyyəti “Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin hüquq və vəzifələri haqqında” Əsasnamənin 2.5-ci maddəsini və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının “Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə” 1998-ci il 21 aprel tarix 19/2 nömrəli qərarı ilə təsdiq edilmiş Təlimatın 4-cü - “Üzvlük haqqının ödənilməsinin təmin edilməsi və üzvlük haqqı ödənilmədikdə görülən tədbirlər” maddəsinin 15-ci paraqrafının “v” bəndi və Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş “Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi”nin 9-cu bəndi rəhbər tutularaq Maliyyə və təşkilati-texniki təminat idarəsinin rəisi V.Rəhimovun təhriri məruzəsi əsasında 2019-cu il 19 avqust tarixindən üzvlük haqqı borcları tam ödənilənədək dayandırılsın.

4. Maliyyə və təşkilati-texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın bir həftə müddətində aidiyyatı auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

5. Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 2-ci bəndi üzrə fəaliyyəti dayandırılmış auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatların müvafiq orqanlara təqdim edilməsi və bu istiqamətdə lazımi tədbirlərin həyata keçirilməsi təmin edilsin.

6. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**